# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV–85

*Xronika*

## Heydər Əliyevin həyat və fəaliyyətinin salnaməsi

*Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində ulu öndərimiz Heydər Əliyevin müstəsna yeri vardır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Azərbaycanın müasir tarixinin taleyüklü hadisələrlə dolu olan otuz ildən artıq bir dövrü məhz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərimizin hakimiyyətdə olduğu–istər 1969-1982-ci illər, istərsə də 1993-2003-cü illər Azərbaycanın sözün həqiqi mənasında çiçəkləndiyi, hərtərəfli inkişaf dövrü olmuşdur.*

*Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin təməl daşları hələ Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə qoyulmuşdu. Müstəqillik illərində isə məhz ulu öndərimizin gərgin və titanik səyləri, düşünülmüş müdrik siyasi kursu sayəsində Azərbaycan nəinki öz suverenliyini qoruyub saxlamış, onu əbədi prosesə çevirmiş, dünyanın qüdrətli dövlətləri səviyyəsinə yüksəltmişdir. Təsadüfi deyil ki, ulu öndərimiz Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Dünyada baş verən proseslərə təsiri baxımından xüsusilə seçilən və bəşəriyyətin ən aktual çağırışlarına cavab verən dahi Heydər Əliyev zamanəmizin tanınmış siyasi və ictimai xadimləri arasında müstəsna yer tutur. Ulu öndərimizin siyasi kursu daim Azərbaycana uğur gətirib və bu gün də gətirməkdədir.*

*"Respublika" qəzeti 2008-ci ilin 8 aprel nömrəsindən başlayaraq Azərbaycanın və böyük türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin anadan olmasının 85 illiyi münasibətilə onun fəaliyyətinin müəyyən dövrünü (1993-2003) xronoloji ardıcıllıqla geniş oxucu kütləsinin nəzərinə çatdırmağı məqsədəuyğun sayır.*

### 15 iyun 1993

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir.

### 16 iyun 1993

Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev Rusiyanın respublikamızdakı fövqəladə və səlahiyyətli səfiri Valter Şoniyanı qəbul etmişdir.

Valter Şoniya respublika parlamentinin sədri seçilməsi münasibətilə Rusiya Ali Sovetinin sədri Ruslan Xasbulatovun təbrik teleqramını ona təqdim etmişdir.

### 17 iyun 1993

Gürcüstan Respublikası Baş nazirinin birinci müavini Avtandil Margianini və Qardabani Rayonu İcra Hakimiyyətinin başçısı Xuta Mamaladzeni qəbul etmişdir.

İran İslam Respublikasının Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Əli Əsgər Nəhavəndianı qəbul etmişdir.

### 18 iyun 1993

Milli Məclisin günortadan sonra keçirilən növbədənkənar iclasında sədrlik etmişdir.

### 19 iyun 1993

Türkiyənin Bakıdakı səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

### 20 iyun 1993

Heydər Əliyevin sədrliyi ilə Ali Sovetin, Prezident Aparatının, Nazirlər Kabinetinin, ayrı-ayrı nazirliklərin və baş idarələrin rəhbərliyinin iştirakı ilə müşavirə keçirilmişdir.

### 21 iyun 1993

ABŞ-ın Azərbaycandakı səfiri Riçard Maylsı qəbul etmişdir.

BMT-nin Azərbaycandakı nümayəndəliyinin başçısı Mahmud əl-Səidi qəbul etmişdir.



**Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib, əsərlər, illüstrativ materiallar, kinolentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır.**

**Heydər ƏLİYEV.**

*Xronika*

### 22 iyun 1993

Böyük Britaniyanın Rusiya və Azərbaycandakı səfiri Brayan Folu qəbul etmişdir.

### 23 iyun 1993

Milli Məclisin iclasına sədrlik etmişdir.

Əbülfəz Elçibəyin Bakıya qayıtması barədə prezidentlə danışıqlar aparmaq üçün Naxçıvan Muxtar Respublikasına getmiş nümayəndə heyətini qəbul etmişdir.

Türkiyə Respublikasının Bakıdakı səfiri Altan Karamanoğlunu onun xahişi ilə qəbul etmişdir.

ABŞ-ın Azərbaycandakı səfiri Riçard Maylsı qəbul etmişdir.

### 24 iyun 1993

Milli Məclis "Azərbaycan Respublikasının prezidenti Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikası prezidenti vəzifələrini daha icra edə bilməməsi və Azərbaycan Respublikası prezidentinin səlahiyyətinin Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçməsi haqqında" qərar qəbul etmişdir.

### 25 iyun 1993

Türkiyənin Azərbaycandakı səfiri Altan Karamanoğlunu qəbul etmişdir.

Almaniyanın Bakıdakı səfiri Tomas Terstegeni onun xahişi ilə qəbul etmişdir.

İran İslam Respublikasının Bakıdakı səfiri Əli Əsgər Nəhavəndianı onun xahişi ilə qəbul etmişdir.

### 26 iyun 1993

ABŞ-ın İnsan Hüquqlarını Müdafiə Təşkilatının - "Helsinki Votç"un sədri Conatan Fantoymu, onun köməkçisi Kurt Soderlandı və təşkilatın keçmiş SSRİ ölkələri üzrə nümayəndəsi Reçel Denberi qəbul etmişdir.

### 1 iyul 1993

"Amoko Kaspian Si Petroleum Kompani" şirkətinin sədri və prezidenti Robert Blantonu, şirkətin vitse-prezidenti və Azərbaycandakı nümayəndəsi Tim Harnetti və digər nümayəndələri qəbul etmişdir.

### 2 iyul 1993

Xarici ölkələrin Bakıdakı səfirlərini və diplomatik nümayəndəliklərinin başçılarını qəbul etmiş, xarici neft şirkətləri ilə imzalanmış bəyannamələrin icrasının dayandırılması səbəbləri haqqında və son günlər Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza hücumlarının genişləndirilməsi ilə əlaqədar bəyanat vermişdir.

### 3 iyul 1993

Beynəlxalq Əmək Təşkilatının "Kollektiv danışıqlara köməklik göstərilməsi haqqında" konvensiyasına qoşulması haqqında Milli Məclisin qərarlarını imzalamışdır.

### 4 iyul 1993

"Ostankino" Dövlətlərarası Televiziya Şirkətinin "Birbaşa efirdə dialoq" proqramına müsahibə vermişdir.

### 5 iyul 1993

Respublikada yaranmış vəziyyətlə əlaqədar ABŞ, Rusiya və Türkiyənin Bakıdakı səfirlərini və BMT-nin Azərbaycandakı səlahiyyətli nümayəndəsini qəbul etmiş, bəyanat vermişdir.

### 7 iyul 1993

Gürcüstan Respublikası Baş nazirinin müavini Avtandil Margianini və ticarət naziri Murtuz Zankalanini qəbul etmişdir.

### 10 iyul 1993

ATƏM-in Minsk qrupunun başçısı Mario Rafaellini qəbul etmişdir.

### 14 iyul 1993

Münaqişə zonasından qayıdan M.Rafaellini qəbul etmişdir.

(davamı növbəti sayımızda)

# Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu

*Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.*

**Heydər ƏLİYEV.**

2008-ci il may ayının 10-da ulu öndər, xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, Azərbaycanımızın qüdrətli dövlətlər sırasına yüksəlməsi üçün böyük xidmətlər göstərmiş Heydər Əliyevin 85 yaşı tamam olur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmış və yubileyin keçirilməsinə həsr edilmiş böyük tədbirlər həyata keçirilməyə başlanmışdır. Bütün bunlar ulu öndərə böyük xalq məhəbbətinin parlaq təzahürüdür.

XX əsrin II yarısında hakimiyyətə gələn, 34 il ardıcıl olaraq dövlət sükanı arxasında məharətlə dayanan, Azərbaycanın tərəqqi və inkişafı naminə cahanşümul, tarixi əhəmiyyətə malik işlər görən bu böyük insan Azərbaycan xalqının sevimli rəhbəri imicini qazanmaqla yanaşı, dünya şöhrətli bir siyasi xadim səviyyəsinə qalxmış, dünyanın görkəmli siyasətçilərinin etiraf etdiyi kimi Şərqin ulduzuna çerilmişdir.

XX əsrin 60-cı illərinin keçmiş SSRİ məkanında inkişaf etmiş sosializm illəri adlandırılmasına baxmayaraq, Azərbaycan iqtisadi və mədəni cəhətdən geridə qalmış respublikalardan biri idi. 60-cı illərdə Azərbaycan iqtisadiyyatı bütünlükdə böhran mərhələsini yaşayırdı. Bu dövrü xarakterizə edən Heydər Əliyev yazırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütünlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu".

Məhz buna görədir ki, 1969-cu ilin 14 iyulunda keçirilən Azərbaycan KP Mərkəzi Komitəsinin plenumu Heydər Əlirza oğlu Əliyevi Azərbaycan KP MK-nın birinci katibi seçdi. Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişafını tapdı. O, respublikamızın gələcək inkişafında çox əhəmiyyətli rol oynadı. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkədə baş verən canlanma xalqda yüksək əhval-ruhiyyə, gələcəyə böyük inam yaratdı. Ölkəmiz inkişaf edib müttəfiq respublikalar içərisində öncül yerlərdən birini tutdu. Bununla da Azərbaycanın tarixində yeni bir dövr - Heydər Əliyev dövrü - böyük dönüş mərhələsi başlandı. Bu mərhələ Azərbaycanın inkişaf salnaməsinə ən parlaq quruculuq mərhələsi kimi daxil olmuş, sənayenin, kənd təsərrüfatının və mədəniyyətin bütün sahələrində tərəqqi baş vermişdi.

Belə ki, 1969-1982-ci illərdə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, xalq istehlak malları istehsalı 3 dəfə, kənd təsərrüfatı məhsulları 2,5 dəfə artmışdı.

Bu dövrdə 250-dən çox fabrik, zavod, istehsal obyektləri tikilmiş, iki milyondan çox vətəndaşın mənzil şəraiti yaxşılaşmış, Bakıda və respublikanın digər şəhərlərində böyük mikrorayonlar salınmışdı.

70-80-ci illərdə Azərbaycanda iqtisadiyyat, sənaye, kənd təsərrüfatı ilə yanaşı olaraq milli mədəniyyət, incəsənət, elm və təhsil sahəsində də böyük işlər görülmüş, milli oyanış baş vermişdi. Ulu öndər Heydər Əliyevin apardığı olduqca ehtiyatlı və incə siyasət bilavasitə milli şüurun oyanmasına, azərbaycanlıların özünü bir millət kimi dərk etməsinə, mədəni irsə, milli adət-ənənələrə, soykökə qayıdış kimi olduqca təqdirəlayiqdir.

Məhz bu müdrik siyasət ölkədə aparılan milli siyasətdə bir yumşalmaya səbəb olmuş, sanki sükut buzu sınmışdı. Azərbaycanın görkəmli ziyalıları, şairləri, yazıçıları, alimləri tarixi keçmişimiz, milli mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, milli ideologiyamız haqqında obyektiv, bəzən də böyük siyasətə uyğun gəlməyən fikirlər söyləməyə başlamışdılar. Heydər Əliyevin ardıcıllıqla həyata keçirdiyi milli oyanış siyasətindən qidalanan ziyalılar Azərbaycan tarixinə, dilinə, ədəbiyyatına və mədəniyyətinə dair fundamental araşdırmalar aparmağa başlamışdılar. Artıq milli tariximizə, dilimizə, ədəbiyyatımıza, mədəniyyətimizə, görkəmli şəxsiyyətlərimizə dair sanballı əsərlər meydana gəlmiş, çoxcildli Azərbaycan ensiklopediyası nəşr edilmişdi.

Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli dərinləşmiş, yaradıcı ziyalıların elmi fəaliyyətində milli-mənəvi dəyərlərin tədqiqi geniş yer tutmağa başlamışdı. Beləliklə, XX əsrin 70-80-ci illəri respublikamızda iqtisadiyyat, elm, təhsil və mədəniyyətin inkişafı sahəsində böyük tərəqqi və inkişaf illəri, dönüş dövrü olmuşdur. Respublikanın bütün iqtisadi, ictimai, siyasi, mədəni, mənəvi, ideoloji həyatını əhatə edən bu mərhələ Heydər Əliyev dühasının böyük təntənəsi idi.

Məhz bu mərhələdə Heydər Əliyevin "xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, zəka mənbəyi" adlandırdığı kitabxana işi də böyük inkişaf yolu keçmiş, yeni-yeni uğurlar qazanaraq xalqın milli-mənəvi dəyərlərindən birinə çevrilmişdir.

60-cı illərdə respublikamızda baş verən dərin iqtisadi böhran ölkənin bütün iqtisadi, siyasi, mədəni həyatına mənfi təsir etdiyi kimi mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana işindən də yan keçməmişdir. Bu dövrdə nəinki kitabxanaların sayı artmamış, əksinə, kənd kitabxanalarının sayı azalmışdı. Məhz belə bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev kitab və kitabxana işinə xüsusi diqqət və qayğı yetirdi. Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi başlandı. Kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi öz xarakterinə və mahiyyətinə görə keçmiş mərhələlərdən öz demokratizminə, məqsədyönlülüyünə, humanizminə, kitabxana xidmətinin xalqa yaxınlaşmasına, oxucu-kitabxana münasibətlərinin daha da təkmilləşməsinə, kitabxana işinə senzura nəzarətinin yumşalmasına, milli dəyərlər sistemində kitabxana işinə diqqətin yeniləşməsinə və nəhayət, kitabxanalara dövlət qayğısının artmasına görə fərqlənirdi. Bütün bunlar ulu öndərin kitab və kitabxananı milli dəyərlərimizin qorunub saxlanmasında və təbliğində mühüm vasitə kimi qiymətləndirməsindən irəli gəlirdi.

Kitaba və kitabxanaya böyük qiymət verən Heydər Əliyev özü də dünya dövlət başçılarının çoxuna müyəssər olmayan qiymətli, çoxcildli kitabların müəllifi kimi tanınmışdır. İftixar hissi ilə demək olar ki, özünün respublikaya rəhbərlik etdiyi 34 illik fəaliyyəti dövründə Heydər Əliyev böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı zəngin elmi-nəzəri və mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvətimiz kimi elmimizin və mədəniyyətimizin qızıl fonduna daxil edilmişdir.

Heydər Əliyevin tariximizə, dilimizə, ədəbiyyatımıza, milli ideologiyamıza, soykökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri bütün elm sahələrindəki elmi araşdırmaların metodoloji əsasıdır. Bu əsərlər Azərbaycanşünaslığa böyük hədiyyədir. Bu əsərlər siyasi tarix, vətəndaşlıq, həmçinin dövlət quruculuğu dərsliyidir.

Heydər Əliyevin hər bir əsəri böyük elmi-mədəni əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə-neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir. Bu əsərləri zaman özü yaratdığından daim yaşayacaq, gələcəyə işıq salacaq. Heydər Əliyevin əsərlərini mütaliə edərkən məlum olur ki, bu əsərlərdə çox geniş elmi məlumat toplanmışdır. Bu əsərlərdə bəşəriyyətin görkəmli dövlət, elm və mədəniyyət xadimlərindən gətirilən sitatlar, məlumatlar və elmi fikirlər müəllifin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət, görkəmli bir ziyalı olduğunu sübuta yetirir. Hazırda respublikamızda Heydər Əliyevin ayrı-ayrı əsərləri ilə yanaşı olaraq Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən "Müstəqilliyimiz əbədidir" başlığı ilə çoxcildli əsərləri çap edilir. Bu cildlərin 20-ci cildi çapdan çıxmışdır. Mütəxəssislərin təxmini hesablamalarına görə onun əsərləri tam nəşr edilsə, 40-45 cild olmalıdır.

Etiraf edilməlidir ki, Heydər Əliyev kimi zəngin elmi-ədəbi irsi, çoxsaylı əsərləri olan dövlət başçıları olduqca azdır. Azərbaycan xalqı, ölkəmizin bütün yaradıcı ziyalıları, çoxminli oxucuları ulu öndərin bu böyük, zəngin irsi ilə fəxr edir, onu oxuyur, öyrənir, öz gündəlik fəaliyyətlərində ondan faydalanırlar. Bu əsərər hamı üçün həyat dərsliyidir. Respublikamızın böyük kitabxana şəbəkələrinin qızıl fonduna daxil olan Heydər Əliyevin əsərləri oxucuların, xüsusilə gənc oxucuların ən çox sevdiyi kitablardır. Kitabxanalarımız ulu öndərin əsərlərinin toplanıb saxlanması və təbliği sahəsində böyük təcrübə qazanmışlar.

Bütün bunlar bir daha təsdiq edir ki, yüksək mənəviyyata, geniş mütaliə dairəsinə malik olan Heydər Əliyev böyük kitab həvəskarı olmuş, onu sevmiş, mütaliəni insan biliyinin əsas amili hesab etmişdir. Kitabı təhsilin, elmin, insanın həyat fəaliyyətinin əsas vasitəsi kimi qiymətləndirən Heydər Əliyev yazırdı: "Hər birimiz ancaq kitab vasitəsi ilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir".

(davamı 4-cü səhifədə)

